# DIPLOMAT

№ 09(009) YANVAR, Çile

İctimai-siyasi qəzet
Rojnama civakî u sîyasî

Qiymәti
Hêjaye
1000 manat


## Xalqımızı Müqəddəs Qurban Bayramı münasibəti ilə təbrik edirik!



## ÖLKƏ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV ANS ŞİRKƏTLƏR QRUPUNUN VƏ ÇİNGİZ MUSTAFAYEV ADINA FONDUN TƏSİS ETDİYİ "2003-CÜ İLİN ADAMI" MÜKAFATININ VƏ DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ

## TİBBİMİZİN DAYAĞI



Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ötən hər bir il respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi tibb sahəsində də yeni inkişaf mərhələsi başlamışdır. Prezidentin siyasi uzaqgörənliyi, dövlətçilik təcrübəsi və gərgin əməyi sayəsində respublikada yaranmış ictimai-siyasi sabitlik yaradıcı və ahəngdar iş şəraiti demokratik abhava səhiyyəmizin inkişafına ciddi təkan vermiş onun qabaqcıl dövlətlərin səhiyyə sisteminə inteqrasiasında mühüm amilə çevrilmişdir. Prezidentimiz Heydər Əliyevi qalan işini onun varisi müdrik insan, hörmətli prezidentimiz İlham Əliyev davam etdirəcək, həyata keçirəcəkdir.

Milli liderimiz Heydər Əliyevin ölümü ilə əlaqədar İlham Əliyev cənablarını 219 saylı əczaxana kollektivi adından şəxsən öz adımdan başsağlığı verirəm. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

*Bəhruz DAŞDƏMİROV*
*10 saylı T.S.H-nin nəzdində 219 saylı əczaxananın müdiri.*

## QANLI YANVAR - AZADLIQ DASTANI



Hərdən biz ata-babalarımızın nəsihətini unuduruq, özüdə tez unuduruq. Babam Kürd Musa ömrünün sonuna-115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin.

Səh. 2-də

## POEZİYADA QADIN GÖZƏLLİYİ



Poeziyada qadın gözəlliyinin tərənnümünə əsrlərlə geniş yer verilmiş, qadın gözəlliyi bütün gözəlliklərin fövqündə dayanmışdır.

Aşıq sevgilisinin gözəllik təcəssümü olan gözlərində, al yanağında, büllur buxağında, inci kimi dişlərində, nazəndə yerişində, incə gülüşündə, həmahəng, ağıllı danışığında dünya gözəlliklərinin zirvəsini, tacını görür.

Səh. 4-də

## *Nêçîrvan Barzanî:* Em dê eskerên tirkan bi zorê derxin



Səh. 5-də

## ИНТЕРВЬЮ МАСУДА БАРЗАНИ В БАГДАДЕ

*"Вашингтон Пост"*



Səh. 7-də

## GÜNÜ-GÜNDƏN GÖZƏLLƏŞƏN DİYAR



Hələ SSRİ-nin vaxtında demək olar ki, Azərbaycanın ən qabaqcıl rayonlarından biri Ağcabədi idi. Rayon özünün ağ qızılı, sarı qızılı ilə həmişə ön cərgədə gedirdi.

Səh. 2-də

## XVI ƏSR KÜRD ƏMİRLİKLƏRİ



Ərəb istilasından sonra kürd xalqının tarixini əsasən üç böyük hissəyə bölmək olar. Birinci dövr VI-XI əsrləri əhatə edir. Bu dövr ərəb, monqol hücumları və müstəqil kürd əmirliklərinin yaranması dövrünə təsadüf edir.

Səh. 3-də

**Hərdən biz ata-babalarımızın nəsihətini unuduruq, özüdə tez unuduruq. Babam Kürd Musa ömrünün sonuna- 115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin. Çünki, onlar fürsət düşən kimi, öz pis əməllərini həyata keçirəcəklər.**

## Baş redaktordan

# QANLI YANVAR - AZADLIQ DASTANI



Tahir ƏLİYEV

Mən ona qədər erməni-müsəlman davası görmüşəm. "İtlə yoldaş olanın zonası əlində olmalıdır" deyə bizə nəsihət verərdi.

İllər keçdikcə bu sözlərin müdrikliyinin şahidi olduq. Şovinistlərin fitvası ilə Erməni daşnaqları Azərbaycanın əzəli yerləri olan Dağlıq Qarabağ torpaqlarının işğalına başladı. Və düz 14 il əvvəl 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının başına gətirilən faciələrin ən dəhşətlisi gətirildi. Vətənin istiqlalı və milli azadlığı uğrunda mübarizəyə qalxan, qəlbindəki vətən sevgisindən başqa heç bir silahı olmayan əli yalın, günahsız insanlar, təpədən dırnağa ən müasir silahlarla silahlanmış azğın erməni daşnaqlarının və Sovet imperiyası qoşunlarının amansız vəhşiliyinin qurbanı oldular.

Güllü-çiçəkli Bakımızın qara asfalt yolları, xalqımızın azadlığı uğrunda mübarizəyə qalxan, igid oğlan və qızlarımızın qanı ilə boyandı. Xalqımız öz suverenliyi uğrunda mübarizədə ilk şəhidlərini verdi. Paytaxtın Azadlıq meydanından Şəhidlər xiyabanına qədər qırmızı qərənfillərlə şəhidlərə misli görünməmiş "çələng" hörüldü, matəm çələngi.

Onlar öz ölümləri ilə əbədi ölməzlik qazandılar. Şəhidlər xiyabanı vətən yolunda canlarını fəda vermiş oğul və qızlarımız üçün əbədi mənzil oldu. Al-qırmızı qərənfillər Şəhidlər Xiyabanının rəmzinə çevrildi.

Bünövrəsi qanla qoyulan bir quruluşun sonu, qanla da bitməli idi. Belə ki, 1986-cı ildə Alma-Atada kazakların qırğını, 1988-ci ildə



Fərqanə hadisələri, 1989-cu ilin aprelində Tbilisi qətliyamları, 1990-cı ilin yanvarında Bakıda, 1991-ci ildə Vilnus şəhərində qanlı qırğınlar törədildi. Təəssüf ki, Moskva və Bakıda oturan satqın rəhbərlərin hazırladığı cinayətkar planlar həyata keçirildi.

Bakı əhalisi dəhşətli səhnə ilə üz-üzə qaldı. Sinəsi güllələrdən deşik-deşik olmuş insan cəsədləri ürəkləri göynədir, tükürpədici nalələrin sədası ərşə qalxırdı. 20 Yanvara açılan səhərdə 130-dan artıq şəhid, 700-dən artıq yaralı qana boyandı.

Bu hadisələri gizlətməyə çalışan dövlət rəhbərlərinin əksinə olaraq, Moskvada yaşayan və işləyən Heydər Əliyev etiraz əlaməti olaraq Sov.İKP sıralarından çıxması üçün bəyanatla çıxış etdi. Bu, tək siyasi partiya üzvünün deyil, uzun müddət Sovet rəhbərlərindən biri olmuş bir şəxsiyyətin cəsarətli hərəkəti idi. Xalq heç vaxt yanılmır, ona görə də gecdə olsa Azərbaycanın xilaskarını Bakıya gətirdi və hərc-mərcliyə son qoyuldu.

Məhz Prezident Heydər Əliyevin tarixi xidmətidir ki, 20 Yanvar qırğını ümummilli faciə səviyyəsinə qaldırıldı və ona hüquqi-siyasi qiymət verildi.

Prezident Heydər Əliyev şəhidlərin ruhunun yad edilməsinə həmişə böyük diqqət yetirirdi. Onun şəxsən şəhidlər üçün abidə kompleksinin tikdirməsinə nəzarət etməsi, xüsusi qiymətləndirilməlidir. Bu xalqın gələcəyi üçün, tarixin qan yaddaşı üçün atılan mühüm bir addımdır.

İnanırıq ki, 20 Yanvar qəhrəmanları heç vaxt unudulmayacaq, Şəhidlər Xiyabanı xalqımızın inanc, ziyarətgahı olacaqdır. Ancaq təsəlli ondadır ki, xalqımız müstəqildir. Azərbaycan xalqı öz müdrik lideri Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyini əldə etmişdir. Xalq yaxşı bilir ki, indi Heydər Əliyev siyasətini inamla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev vətənimizin və xalqımızın qarantıdır.

**Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin!**

# GÜNÜ-GÜNDƏN GÖZƏLLƏŞƏN DİYAR



Materialları hazırladı: Ağayev YAQUB.

Hələ SSRİ-nin vaxtında demək olar ki, Azərbaycanın ən qabaqcıl rayonlarından biri Ağcabədi idi. Rayon özünün ağ qızılı, sarı qızılı ilə həmişə ön cərgədə gedirdi. Bu əhval-ruhiyyə rayonda indi də davam edir. Rayon əhalisi öz firəvan həyatını yaşayır. Hər bir vətəndaş rayonun abadlaşmasına, gün-gündən gözəlləşməsinə çalışır. Abadlıq işləri hər vaxt davam edir.

Rayon mərkəzində böyük ticarət mərkəzləri, məktəb binaları, xəstəxanalar tikilib əhalinin istifadəsinə verilir. Rayonla kəndlər arasında körpülər salınır ki, bu da sakinlərin böyük sevincinə səbəb olub. Çünki, bu qısa yolu onlar, körpü salınmamışdan qabaq, çox uzun yol getməklə qət edirdilər.

Rayon mərkəzində Ümummilli liderimiz Heydər Əliyevin adına salınmış park yerli əhalinin gözəl istirahət mərkəzi olmuşdur.

Azərbaycanın digər rayonlarında olduğu kimi Ağcabədidə də məcburi qaçqın və köçkünlər məskunlaşmışdır. Elə ilk günlər rayon əhalisi onları öz doğmaları kimi qarşıladı, onlara nəvaziş və qayğılarını göstərdilər. İndi onlar özlərini yerli sakinlərdən heç də seçmirlər Ağcabədinin taxta körpü adlanan hissəsində məskunlaşmış Laçın rayon qaçqınları maddi və mənəvi cəhətdən təmin olunmuşlar. Ancaq onların təmin olunmalarına baxmayaraq böyük ümidlə, həsrətlə öz torpaqlarının alınması gününü səbirsizliklə gözləyirlər.

Mən də bir Ağcabədi sakini kimi bu günü həsrətlə gözləyirəm. Bütün köçkünlərin öz yurd-yuvalarına qayıtmasını arzulayıram.

# İDMAN- BİZİM GƏLƏCƏYİMİZDİR!



Mən hələ kiçik yaşlarımdan idmana böyük maraq göstərirdim. Hər dəfə Beynəlxalq yarışlarda, Avropa çempionatında, Dünya çempionatında idmançılar medallarla təltif olunanda, ürəyimdən belə bir hiss keçirdi - kaş mən də belə olaydım!

İdmana qarşı məndə olan həvəs məni idmanın, Karate-do növünə getməyimə səbəb oldu. Mən idmanın bu növü ilə mükəmməl məşğul oluram. Elə bu həvəsə görədir ki, mən Ukrayina respublikasında keçirilən Beynəlxalq turnirdə öz yaşıdlarım arasında yarışda II-ci yeri tutmuşam. Gümüş medala və diploma layiq görülmüşəm.

Avropa çempionatında isə III-cü yerlə əldə etmişəm.

Ailəmizdə idmanla tək mən məşğul olmuram. Qardaşlarım Rahib və Elvin də idmanla məşğul olurlar. Rahib bir çox yarışlarda qalib gələrək "Kink boks" üzrə birinci və ikinci yerlərin qalibi seçilmişdir.

Biz qarşımıza məqsəd qoymuşuq ki, hələ bundan sonra da bütün yarışlarda qalib gələk, Azərbaycanın bayrağını yüksəklərə qaldıraq. Respublikamızda idmana böyük qayğı göstərilir. Elə bu qayğının nəticəsidir ki, gənclərin idmana olan həvəsi günü-gündən artır.

## Sultan ZAHAR



# VƏTƏN HƏSRƏTİNİ UNUTMAQ OLMUR

Vətənin həsrəti çıxmır yadımdan,
Ərmiyin kəkliyi, unutmaq olmur.
Doymazdım Ağsuyun şırıltısından,
Ziminin əliyi, unutmaq olmur.

Necə unudasan gözəl adanı,
Məngu mandasını həm baldırğanı,
Yedikcə yaz vaxtı artırır qanı,
Gölün əvəliyi, unutmaq olmur.

Mistoqulo gözəllərin gözəli,
Şeyininin hər tərəfi məzəli.
Çimənkəndin igid olub əzəli,
Babamın çəliyi, unutmaq olmur.

Zaharı orada ov ovlaması,
Taharın ov tutan qara tulası.
Tapın yemlik ilə birgə yoncası,
Handın meşəliyi, unutmaq olmur.

Qar düşəndə yenə gedərdik ova,
Nivanı minərkən ov qova-qova.
Hərdən də enərdik qədim Xosrova,
Xosrov gözəlliyi, unutmaq olmur.

Vedimin həsrəti çıxmır yadımdan,
Çıxmayacaq nə qədərki sağlam can.
Bu həsrətə heç vaxt dözəmmir Sultan,
Yorulmaq ləliyi, unutmaq olmur.

*23.01.2004.*

# UZUN ÖMRÜN SİRRİ

*Yolumuzu Abşeron rayonunun Masazır kəndinin yanında məskunlaşmış Laçın rayonunun Çıraqlı kəndinə salırıq. Redaksiya heyəti kimi xalqın qonağı olmaq, yaşayışları, problemləri ilə maraqlanmaq, arzu və istəklərini bilmək istəyirik.*



*Qələmə aldı: Ramiz*

**-Kimdən başlayaq? - deyə Tahir müəllim soruşur.**

-Babayevlərdən başlayaq - dedim.

**-Babayev kimdir?**

-Babayev bizim kəndin ən yaşlı ağsaqqalı xalqın qayğısına qalanıdır. Yaxşı olar ki, özüylə söhbət edək.

Xırdalan qəsəbəsi ilə üzbəüz salınmış yeni qəsəbəyə gəlirik. Yaraşıqlı və gözəl quruluşlu evlər adamı heyran edir. Bizim kəndin çoxu, demək olar ki, 90%-i burada məskunlaşıb. Artıq böyük bir qəsəbə yaradıblar.

Maşını Babayevin qapısı ağzında saxlayırıq. Qapını döyürük. Kiçik oğlu Mübariz bizi qarşılayır.

- Xoş gəlmisiniz, içəri keçin.

Biz evə keçirik və Babayevi soruşuruq

-Atam iş gördürür, işin üstündədir. Kəndə yeni transformator qoydurur. İndi çağıraram. On dəqiqə keçməmiş Əmirxan baba gəldi. Yaşına uyğun olmayan çəldiklə içəri daxil oldu və bizimlə görüşdü. Xoşgəldin etdi. Qonaqları Babayevlə tanış edirəm.

-Demək qəzetdən gəlmisiniz. Qoca vaxtımda məni unutmamısınız.

**-Elədir, kəndin problemlərini öyrənmək üçün gəldik. Elin ağsaqqalı kimi səndən başlamağı məsləhət bildik.**

-Yaxşı eləmisiniz, sizi dinləməyə hazıram. Ay uşaq, çay gətirin.

**-Babayev, bu yaşda xalqın bütün problemlərinin ardınca siz gedirsiniz. Yaranan ziddiyyətləri həll etmək, toylarda iştirak edib xeyir-dua vermək, hökumətlə olan arzu-istəkləri, kəndin abadlıq işlərini görmək. Bütün bunların səbəbi nədir?**

-Əvvala onu deyim ki, "Xalqın gözü tərəzidir" ağsaqqalını seçir və ağsaqqala da əməli ilə bunu yerinə yetirirsə elin sevimlisinə, elin söz sahibinə, vəkilinə çevrilir.

-1992-ci ildə məlum səbəblərdən Laçın rayonunun Çıraqlı kəndindən, yurd-yuvamızdan köçdük. Bir neçə yer dəyişdikdən sonra burada məskunlaşdıq. Bizim kürd camaatı çox qoçaq camaatdır. Nə dövlət yardımına, nə də sədəqələrə boyun əyən deyillər. Camaatımızın əsas məşğuliyyəti heyvandarlıqdır. Burada da heyvandarlıqla, qəssablıqla məşğuldurlar. Bakı-Sumqayıt şəhərlərini təzə ətlə təmin edirlər. Hər həftə rayon bazarlarına gedib-gəlmək, kəsim aparıb satış etmək çətin olsa da dünyanın hər yerində olduğu kimi burada da bu işin öhdəsindən kürdlər gəlir.

Buraya gələndə hər şeyi sıfırdan başladıq. İndi allaha şükür yaşayışımızı bərpa edə bilmişik.

**-Burada nə vaxtdan məskunlaşmısınız?**

-1994-cü ildə gəldik buraya. İndi hal-hazırda 600 ailə məskunlaşıb bu yeni qəsəbədə.



*El ağsaqqalı Əmirxan kişi cavanlara xeyir-dua verir*

**-Eşitdiyimizə görə kəndin sosial problemlərinin həllində Sizin böyük rolunuz olub?**

-Bəli, olub. Mən camaatın sözçüsü olmuşam, tələb etmişəm hökumətdən. Öz hesabımıza pul toplamışıq. Mərkəzi yoldan kəndə yoldan 2 km daş-çınqılla yol çəkdirmişik. Yeni qaz xətti çəkmişik. Bütün evlərdə qaz yanır. Hər bir evdə işıq var. Bu da öz hesabımızadır. Sağ olsun Qaçqınkomun sədri Əli Həsənovu, yeni transformatorun alınmasında və başqa problemlərdə həmişə bizə kömək edir. Kəndin əsas problemi qəbristanlıq idi, onu da təşkil etdik. Kəndin yuxarı hissəsində onun üçün bir ərazi seçdik və daş hasara aldıq. Böyük darvaza asdıq. Hamısı camaatın vəsaiti hesabına. Mərasimlər üçün xeyir-şər çadırı avadanlığı təşkil etmişik. Kəndə 200 evlik yeni rabitə telefon çəkdirdik. Bu il kəndin məktəbini də camaatın hesabına tikdik. 6 otaq istifadəyə verilib, dərslər başlanıb. Uşaqlar çox uzaq və təhlükəli yolu keçərək Xırdalan qəsəbəsinə dərsə gedirdilər. İndi qismən də olsa məktəb məsələsi həll olunub. Ancaq məktəb müasir qaydada deyil. Misir Mərdanov bir az insafa gəlib yardım etsə, qaydasına düşər. Həm kənddəki işsiz müəllimlər işlə təmin olunar, həm də uşaqlar evlərinə yaxın yerdə təhsil alar.

Tahir müəllim marağını saxlaya bilməyib nurani zəhmətsevər qocaya sualını verir.

**-Əmirxan əmi, öz həyat yolunuzdan da bir az danışın.**

-A bala, nə yaşım var ki, nə də danışım. Anadan olduğum il 1916-cı ildir. 88 yaşım var. 1941-ci ildən Hitlerin müharibəsinə getdim. Berlinə qədər gedə bildim. 1945-ci ildə kəndə qayıtdım. Uzun müddət təsərrüfat briqadiri işləmişəm. 1 orden, 18 medalım var. 3 oğul, 4 qız atasıyam. 55 nəvə-nəticəm, bir də məni sevən xalqım var.

**-Mən özüm şahidiyəm ki, 101-i havasında oynayırsan el şənliklərində. Onun sirri nədir?**

-Bütün toylarda birinci təbrik üçün sözü mənə verirlər, mən də gəncləri təbrik edirəm və 101-i havasında oynayıram və deyirəm ki, Babayev 101 il yaşamalıdır.

**-Arzu və təkliflərin nədir? Gənclərə nəsihətin?**

-Əlaqədar təşkilatlardan qəzetiniz vasitəsi ilə xahiş edərdim ki, kəndimizin adını yaşatmaq üçün yeni qəsəbəyə Çınaqlı adını versinlər. Məni qoca vaxtımda ziyarət etdiyinizə görə sizə təşəkkür edirəm.

Babayev bizimlə söhbətini tamamlayıb kəndi gəzdirdi, yeni məktəblə tanış etdi, gördüyü işləri əyani olaraq göstərdi. Sonda bizdən xahiş etdi ki, onu təzə quraşdırdığı trasformatorun yanında düşürək. Havanın çox soyuq olmasına baxmayaraq 88 yaşlı qayğıkeş insan təşkil etdiyi transformatorun quraşdırıldığı yerə getdi.

# XVI ƏSR KÜRD ƏMİRLİKLƏRİ

***Ərəb istilasından sonra kürd xalqının tarixini əsasən üç böyük hissəyə bölmək olar. Birinci dövr VI-XI əsrləri əhatə edir. Bu dövr ərəb, monqol hücumları və müstəqil kürd əmirliklərinin yaranması dövrünə təsadüf edir. XVI,XVII,XVIII və XIX əsrin ortaları ikinci dövrü - güclü Osmanlı Türk və İran imperiyalarının yaranması və Kürdüstanın parçalanması dövrüdür. Türk və İran hökmdarlarının mərkəzləşdirilmiş siyasətlərinə baxmayaraq, Türkiyədə Botan, Həkəri, Bəhdinən, Soran, Baban, İranda isə Ərdəlan kimi müstəqil vəyarımmüstəqil kürd əmirlikləri, knyazlıqları mövcud olmuşdur. XIX əsrin ortalarından bu günə kimi isə üçüncü dövr başlayır.***

Kürd əmirlikləri Türkiyədə 1837-1852-ci illərdə, İranda isə 1860-cı ildə ləğv olundular. Kürd əmirliklərinin ləğvindən sonra kürd xalqının özünüdərketməsinin yeni forması başlayıb. Bu özünü bu günə kimi davam edən milli-azadlıq hərəkatı ilə səciyyələndirir.

Kürd xalqının yuxarıda göstərilən tarixi bölgüsündən və XVI əsr kürd əmirliklərinin müstəqil dövlət kimi mövcud olmaları göstərir ki, XVI əsr kürd tarixində ən parlaq dövr olmuşdur. Bu dövr bütün cəhətlərdən kürd xalqının gələcək taleyinin həllində dönüş dövrü kimi qələmə alınır.

XVI əsrə qədərki Kürdüstanın sülalələik prinsipinə əsaslanan şanlı kürd əmirlikləri təşkil edirdi. Bu əmirliklərin bəziləri hətta öz pullarını belə buraxırdılar. Onların hökmdarlarının adları namaz vaxtında yad edilirdi. Buna Ərdəlan, Həkəri, İmagiyə, Cıziri, Soran, Baban və Həsənkef əmirliklərinin hökmdarlarını misal gətirmək olar.

**Ərdəlan əmirliyi** - İran ölkəsinin qərbində yerləşmiş şimaldan Azərbaycanla, cənubdan isə Luristanla həmsərhəddir. Paytaxtı Sənəndəc şəhəridir. Ərdəlanlar sülaləsi tərəfindən idarə olunan bu əmirlik böyük əraziyə malik olub. Bu əraziyə Zalm, Taqsu, Xəvər, Siman, Qulambər, Mərivan, Tanurl, Mşekəs, Sarucik, Qaradağ, Şəhrbazar, Alan kimi mahallar daxil olub.

**Cıziri əmirliyi** - Cıziri əmirliyinin adı həmin əmirliyin paytaxtının adı ilə bağlıdır. Bu şəhər Türkiyənin şərqində Diyarbəkr şəhərinin 170 km məsafəsində yerləşir. Bu əmirliyə Cıziri, Qurqil, Arur, Piruz, Batan, Tanza, Finik, Tur, Haytan, Şah, Niş Atil, Ərəmşat, Kəvər və Dih kimi 14 böyük mahallar daxil idi.

**Həkəri əmirliyi** - Həkəri əmirliyi Türkiyənin şərqində yerləşmiş, şərqdən İran ilə, cənubdan isə İraq ilə qonşu olub. Bu ərazi çətin keçilən dağlardan ibarətdir. Baş qərargah Şəmdin mahalının Bəy qalasında yerləşib. Molla Mahmud Bəyazidin yazdığına görə "Həkəri hökmdarlarının nəsilləri Kürdüstanda olan tayfalardan üç ən qədimi və tanınmışları olmuşdular. Bu əmirlik o dərəcədə böyük və güclü olub ki, digər dövlətlər cürət edib onlara hücum etməzdilər".

**İmadiyə əmirliyi** - İmadiyə əmirliyi Həkəri əmirliyinin cənubunda yerləşib dağlıq ərazini əhatə edib. Bu əraziyə İraqda Mosul şəhərinin şimalında yerləşən Doxuk mahalı, Zab və Qomal çaylarının əhatəsində yerləşən Akra, Zevar mahalları daxil idilər. Əmirliyə Bahdinan sülaləsi başçılıq etmişdir.

**Həsənkef əmirliyi** - Əmirliyin adı Mesopotamiyada yerləşən ən böyük Həsənkef şəhərinin adı ilə bağlıdır. Əmirliyə Bitlis mahalının cənubi-qərbində yerləşən Siirt, Bitlisin qərbində yerləşən Arzan mahalları və Diyarbəkrə yaxın Beşiri əyaləti daxil olublar. Yerli kürd sülalələrindən olan maliklər əmirliyi XIV əsrdən idarə etməyə başlamışdılar. Maliklərdən olan Xəlil bəyin hökmdarlığı dövründə əmirlik XVI əsrin əvvəllərində tam müstəqil şəraitdə hökm sürmüşdür.



**Qələm aldı: Kərəm Oruc**

**Soran əmirliyi** - Soran sülaləsi tərəfindən idarə olunan bu əmirlik Ərbil vilayətinin ərazisində şimali İraqda mövcud olub. Müasir Ş.X.Bidlisi özünün şah əsəri olan "Şərəfnamə" əsərində yazır: "Soran hökmdarı o dərəcədə güclü idi ki, bütün ətrafda olan böyük və kiçik əmirliklər ondan qorxardılar və təzim edərdilər".

**Baban əmirliyi** - Baban əmirliyi Baban sülaləsi tərəfindən idarə olunub. Ərazisi şimali İraqın Süleymani vilayətinin tam ərazisini və Ərbil vilayətinin bir hissəsini əhatə edib. Mərkəzi şəhəri Şərbajar olmuşdur. Baban əmirliyinin hökmdarı qüdrətli hökmdar olmaqla bərabər çoxlu ərazilər ələ keçirmişdir. Onlar Zarza, Soran əmirliklərindən Larcan, Sivi, İran şahından isə Soldur torpaqlarını qoparıb öz ərazilərinə qatmışlar.

Yuxarıda adlarını çəkdiklərimiz əmirliklərdən başqa Kürdüstan ərazisinə çoxlu bölgələr də daxil olmuşdur. Bunlardan Bidlis, Xizan, Asbayurd, Moks, Şirvan, Sasun, Gəndj, Arçiş, Adileevaz, Palo, Oçərmik, Çəmişgərək, Kulb, Batman, Darzini, Atak, Tercil, Kilis, Xoşab, Asut, Urmiyə, Deryas, Dul, Axtac, Əl-Teymur, Soldur, Palanqan, Dartanq, Mahidaş və s. kimi bölgələri göstərmək olar.

Bu bölgələrdən də bəziləri XV əsrin axırları və XVI əsrin əvvəllərində özlərini müstəqil dövlət kimi aparmışlar.

Böyük əraziyə malik olan Kürdüstan torpaqlarında olan əmirliklərin başçılarının mənafeləri və sülalələr arasında gedən çarpışmalar vahid, müstəqil böyük Küdüstan şəklində birləşməyə imkan verməmişdir. Ona görə də, bəzi əmirliklərin müxtəlif dövrlərdə müstəqil dövlət kimi hökm sürmələrinə baxmayaraq, XIX əsrin ortalarında bu əmirliklər süqut etdilər.

*Poeziyada qadın gözəlliyinin tərənnümünə əsrlərlə geniş yer verilmiş, qadın gözəlliyi bütün gözəlliklərin fövqündə dayanmışdır. Aşıq sevgilisinin gözəllik təcəssümü olan gözlərində, al yanağında, büllur buxağında, inci kimi dişlərində, nazəndə yerişində, incə gülüşündə, həmahəng, ağıllı danışığında dünya gözəlliklərinin zirvəsini, tacını görür. Aşıq insanın, xüsusən qadının bütün xarici gözəlliyini yüksəkliyə ucaldanda belə heç vaxt xarici gözəllik əsiri olaraq qalmır. Əslində insan varlığının mənəvi aləmini düşünməyə, onun ucalığını anlamağa sövq edir.*

# POEZİYADA QADIN GÖZƏLLİYİ



**Nəriman ƏYYUB**

**Belin nazik, qəddin uca, üzün gül,**
**Məlahəti sən cananda görmüşəm.**
**Nə Gülüstan-Rəmdə, nə Şahpəridə,**
**Nə mələkdə, nə insanda görmüşəm.**

Dilqəm təbiət gözəlliyini insan gözəlliyi ilə bağlı düşünür. Təbiətlə yarışda insana - qadına üstünlük verir.

**Az bilirsən camalının qədrini,**
**Görsə mat eyləyər ayın bədrini.**
**Necə deyim o zülflərin ətrini,**
**Nə sümbüldə, nə reyhanda görmüşəm.**

Sənətkar aşığın niyyəti onu dinləyənlərə, oxuyanlara sevinc paylamaqdır. Ona görə də insanın sevincini gözdən oxumaq istəyən aşıq gözəlləmələrində gözün tərənnümünə həmişə üstünlük verir.

Aşıq gözü zərif çiçəklərə oxşardır. Göz zərif gözəllik obyekti kimi qiymətləndirilir. Qurbani gözü təbiətin incə və ətirli çiçəyi olan nərgizə bənzədir.

**Gözlərin nərgizli, hüsnün Məhtəban,**
**Açılıb gül, süsən, sünbül, ərcivan.**
**Zambağı yasəmən, bərgi-ireyhan,**
**Fəsli bahar gülüstanım, xoş gəldin.**

Xəstə Qasım qadın gözəlliyindən danışarkən gözün ecazkar gücünə, bu gözəllik ünsürünün qeyri-adi təsirinə diqqəti cəlb edir.

**Aşıq olub bir söz desən özündən,**
**Adam bada gedər ala gözündən.**
**Danışanda şəkər damar gözündən,**
**Qaymaq dodaqları sənəm, bəri gəl.**

Aşıq Ələsgərə görə göz, gözəllik aləmində elə bir incidir ki, ona qiymət qoymaq mümkün deyil.

**Gözəllər sultanı ay Səlbi xanım,**
**Sallanışın bir mahala əvəzdi.**
**Gözlərinə qiymət qoya bilmirəm,**
**Qaşın min tümənlik mala əvəzdi.**

Müxtəlif aşıq şerlərində insanın xarici gözəlliyinə, bu gözəlliyin real təsvirinə aid çoxlu misallar vardır. Ələsgərin qoşmalarında oxuyuruq.

**Xoş saatda xoş gəlibdir cahana,**
**Yoxdur gözəlliyə qüsur, bəhanə.**
**Qənd əzilib dilə, dişə, dəhanə,**
**Qaymaq dodaqlara bal ələnibdir.**

Ələsgərin ustası Aşıq Alı isə gözəli belə tərənnüm edir.

**Bizim elin gözəlinin,**
**Camalından doymaq olmur.**
**Boy, buxunu can alandı,**
**Ləbləri tək qaymaq olmur.**

Aşıq poeziyasında qadının zahiri gözəlliyindən danışarkən yaraşıqlı, zərif zövqlü, deyim məsələsinə də, bədənindəki incəliyə, qəşəngliyə də fikir verilir. Burada qəşəng geyim gözəlliyin bir ünsürü olmaqla yanaşı lirik surətini zəngin, incə zövqə malik olduğu ətraf aləmin gözəllikləri ilə qadın gözəlliyinin ahəngdarlığı əks etdirilir.

Aşıq Qurbanidə oxuyuruq.

**O zəhri-zülfləri köksündə çəpər,**
**Zərzərbab üstündən, atlazi çərkəz.**
**Yaxası mürəssə, çatısı gülgəz,**
**Çapqatının ucu sürmələnibdir.**

Qadının zahiri gözəlliyi aşıq sənətkarın gözəllik idealını təcəssüm etdirən vasitəyə çevrilir.

**Xəstə Qasım deyər: hənək hənəkdir,**
**Ağ üzündə qoşa xallar bənəkdir.**
**Ətlaz nimtənəli, ipək köynəkdir,**
**Üsb-başı türmə şallı Sənəm, gəl.**

Bəli aşıq poeziyasında qadın gözəlliyinə çox geniş yer verilir. Söylədiyimiz gözəlliklər sanki keçmişdə qalmışdır. İndiki gözəl-gözəlliyi xoşagəlməz, ürəkbulandırıcı, qəlbağrıdan formalarda görürük. Nədənsə hamı gözünü yumur, bu süni boyanmış "gözəlliyi" görmür. Ağsaqqallar, ağbirçəklər ağzına su alaraq dinmir. Xoşagəlməz üzdəniraq modalar baş alıb gedir. İsmət tapdalanır, həya ayaqlar altına atılır. Necə ki, müasir şair dediyi kimi:

**BELƏ OLMAZ, AY ATALAR-ANALAR**

**Niyə sözü keçmir bu ataların?**
**Qızı üryan gəzir, dolanır harın.**
**Göbəyini göstərir, çılpaqdır qarın,**
**Belə olmaz, ay atalar-analar!**
**Dinin, nə qədər ki, azca abır var!**

**Gəlin ərə gedir üryan, ay aman?!**
**Toyda bədən çılpaq, sürünür tuman.**
**Qışda xəstələnir, olammaz güman,**
**Belə olmaz, ay atalar-analar!**
**Dinin, nə qədər ki, azca abır var!**

**Dinmədiniz, yarıq tuman geyəndə,**
**Dinmədiniz, qaşı qırxıb əyəndə.**
**Dinmədiniz, nalayiq söz deyəndə,**
**Belə olmaz, ay atalar-analar!**
**Dinin, nə qədər ki, azca abır var!**

**Küçələrdə geyir gecə paltarı,**
**Bədəni çılpaqdır yarıdan-yarı.**
**Dar şalvar göstərir abırı-arı,**
**Belə olmaz, ay atalar-analar!**
**Dinin, nə qədər ki, azca abır var!**

**Dinməsəniz pozulacaq məmləkət,**
**Qalacaqdır bizlərə ağır töhmət.**
**Dinənlər azalıb nədənsə fəqət,**
**Belə olmaz, ay atalar-analar!**
**Dinin, nə qədər ki, azca abır var!**

**Hardan gəldi xoşagəlməz modalar?**
**Bəyəndilər başadüşməz gədalar.**
**Nəriman Əyyub haqq söylədi sədalar,**
**Belə olmaz, ay atalar-analar!**
**Dinin, nə qədər ki, azca abır var!**

---

# 2004-cü il - Meymun ili

**Məlum olduğu kimi, 2004-cü il meymun ilidir. Çinlilər bu ilə xol deyirlər. Şərq aləmində meymun tərəqqi simvolu kimi qəbul edilir.**

**Bu ildə doğulanlar işlərinin ram getmələrini xoşlamırlar, sərtliyi sevmirlər, hər şeyi bilmək istəyirlər. Meymunlar ağıllıdırlar, axtarışda olmağı sevirlər və özlərinə məxsus xüsusiyyətlərə malikdirlər. Heç vaxt qazandıqları uğurla kifayətlənmirlər.Təbiətdə meymunların 200-ə qədər növü var. Ölçüləri balaca siçandan tutmuş 2 metrə qədər nəhəng olurlar. Bunların bir hissəsi bitkilərlə, digər hissəsi həşəratlarla qidalanır, hətta öz nümayəndələrini yeyənlər də var. Yaşayış yerləri subtropik Afrika, Asiya və Amerika qitələridir.**

Meymunlar həmişə insanları maraqlandırmış və onları ovlamışlar. Onları sirklərdə, heyvanxanalarda və evlərdə saxlayırdılar.

Bir çox yerlərdə yerli əhali - aborgenlər hətta meymun ətindən bu günə kimi öz mətbəxtlərində istifadə edirlər. Buna görə deyirlər - ən vəhşi heyvan insandır.

Meymun fizioloji cəhətdən insana ən yaxın olan heyvan olduğundan onların üzərində son zamanlar çoxlu təbabət təcrübələri aparırlar. Qanın və hüceyrələrin oxşarlığı insanla o qədər yaxındır ki, onların orqanlarından insanlar üçün istifadə olunur.

Qədim dövrlərə aid olan meymunlara makaki, martışki, pavianı, insanabənzər - qorilla, şimpanze, oranqutan və s. kimi meymunları misal göstərmək olar.

Makakilər 12 növə malik olub Pakistan, Yaponiya, Tibetdən Şri-Lankaya qədər, həmçinin Filippində və Malay arxipelağında yaşayırlar. Əsasən qayaların yarğanlarında və ağacların üstündə yaşayırlar. Bəzən şıltaqlıq edib düyü, qarğıdalı, şəkər qamışı plantasiyalarına hücum edirlər. Bu heyvanlar BTMİ (Beynəlxalq Təbiəti Mühafizə İttifaqı) Qırmızı kitabına düşüblər.

Pavianlar geniş nəslə malikdirlər. Ən geniş yayılanı pavian-qamadrillərdir. Bunlar əsasən Efiopiyada, Somalidə, Sudanda, Ərəbistan yarımadasının cənub-qərbində, hətta Nil çayının sahillərində yaşayırlar. Qədim Misirdə onları günəş allahı RA-ya bərabər tutarmışlar. Ölənlərin dərisini mumiyələşdirib ibadətgahlarda saxlayarmışlar.

İnsanabənzər meymunların genləri insan genləri ilə 90% üst-üstə düşür. Oranqutan sözünün mənası Malayca "meşə insanı" deməkdir. Bunlar çox təsadüfi heyvandılar. Yer kürəisndə onlara Sumatra adalarında və Kalimantanada rast gəlmək olar. Kalimantan oranqutanın çəkisi 250 kq-a çatır. Onlar ağacların üstündə budaqlarda gecələmək üçün bir növ yuvalar düzəldirlər. Ağacların üstündə yatanda hökmən bir əl ilə, yıxılmamaq üçün, ağacdan tuturlar.

Ana oranqutanın hamiləlik dövrü 275 gün çəkir.Dünyaya bir baladan çox gətirmirlər. Balanın çəkisi 1200-1600 qram olur. Balanı 3 il əmizdirdikdən sonra sərbəst həyata buraxırlar.

Ekvatorial Avrikada adi və cırtdan şimpanzelər yaşayırlar. Onlar həm yerdə, həm də ağacda həyat sürürlər, çox bərk qaçırlar. Şimpanzelərin dili çox "zəngindir". 30-dan artıq səsə malikdirlər. Yeganə meymundur ki, ağlaya və ya gülə bilir. Onların qida mənbəyi bitkidir.

Yeni dünyanın - Amerikanın kəşfindən sonra insanlar yerli meymunlardan öz məqsədləri üçün vəhşicəsinə istifadə etmişlər. Bu vəhşiliklərə baxmayaraq elə insanlar var idi ki, oranın flora və faunası ilə məşğul olmuşlar, həqiqətən buranın təbiyəti avropalıları valeh etmişdir.

Amerika qitəsində dünyada ən kiçik meymunlar yaşayır. Əsasən cənubi amerikada - Amazon çayı sahillərində, And dağının ətəklərində yaşayırlar. Onlara meymun-oyuncaqlar deyirlər.

Ən böyük cırtdanın uzunluğu 15 sm-ə çatır. Təsəvvür edin ki, nə dərəcədə miniatür bir varlıqdırlar. Amazon çayının aşağı hissəsində yerli əhalinin "uistit" adlandırdıqla-



rı meymunlar çox yayılmışdır. Onlar demək olar ki, ağaclardan düşmürlər və ancaq həşəratlarla, meyvələrlə qidalanırlar. Bu meymunlar 12 il ömür sürürlər.

Amerikanın cənubunda yaşayan oduncaq meymunlardan ən böyüyü "rozalı" adı ilə tanınır. Bu tip meymunların çox qəribə xüsusiyyətləri var. Ana meymun balanı dünyaya gətirdikdən sonra ata meymun onu qəbul edir. Bala atanın tüklərindən bərk-bərk tutmaqla və quyruqları vasitəsilə atadan yapışır. Ata balanı 4 aya qədər saxlayır. Anaya balanı yalnız əmizdirmək üçün verir. Sonradan bala sərbəst həyata qədəm qoyur. Hal-hazırda bu cür miniatür meymunların kökü kəsilmək üzrədir. Ona görə də onların hamısı Qırmızı kitaba düşüblər.

Amerikanın Braziliya, Peru, Boliviya, Paraqvay, Ekvador və Venesuella ölkələrində "titi" adlı meymunlar yaşayırlar. Onlar həm gündüz, həm də qaranlıqda hərəkətdə olurlar. Bu ərazilərdə eyni zamanda "saki" adlanan meymunlar da yaşayırlar. Onlar nəinki bitkilərlə, eyni zamanda siçanlarla və balaca quşlarla qidalanırlar.

Amerika meymunlarının ən böyüyü nərildəyən meymunlardır. Onların ölçüləri itin ölçüləri qədər olur. Onların nəriltisi yaquarın nəriltisinə oxşayır. Ona görə onlar nərildəyəndə səyahətçilər dərk edə bilmirmişlər ki, bu nərilti kimə məxsusdur.

Meymunlar haqqında tam təfsilatı ilə bir məqalədə yazmaq çətindir. Bir şeyi qeyd etmək lazımdır ki, bir çox meymunların kökü kəsilmək üzrədir. Buna səbəb insanların özləridir. Elə insanların özləri də bunları Qırmızı Kitaba salıblar. Qırmızı Kitaba salıblar ki, kökləri kəsilməsin, çünki onlar bizlərə ən çox oxşayan heyvanlardır və bizə lazımdırlar.

***Kərəm ORUC***

---

# TƏBRİK EDİRİK!



*"Diplomat" qəzetinin redaksiya heyyəti Kürd oğlu Mahiri 57 yaşı tamam olması ilə əlaqədar təbrik edir, ona həyatda ən şirin nemət olan cansağlığı, uzun ömür və ailə xoşbəxtliyi arzulayır.*

---

# Qordi düyünü nədir?

**Qordi düyünü - qədim yunan əfsanəsinə görə, Frakiya hökmdarı Qordinin arabanın boyunduruğunun dişlərinə bağladığı dolaşıq düyündür. Düyünü heç kəs aça bilmirdi. Qeybdən gələn xəbərə görə Qordi düyününü açan şəxs guya bütün dünyaya hakim olacaqdı. Rəvayətə görə, Makedoniyalı İsgəndər Qordion şəhərinə gələrək (e.ə. 334-cü ildə) Qordi düyününü qılıncla kəsmişdi. Mürəkkəb və dolaşıq məsələ barədə tez və cəsarətli qərar qəbul etmək mənasında işlədilən "Qordi düyününü kəsmək" ifadəsi bununla bağlıdır.**

**ASE. III cild, səh. 207**

***Zümrüd RƏHİMOVA,***
***Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi***

---

## Allah rəhmət eləsin!

"Diplomat" qəzetinin redaksiya heyyəti Vedibasar mahalının Xalisa kəndindən olan

**Əliyev Əli Musa oğlunun**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

"Diplomat" qəzetinin redaksiya heyyəti Vedibasar mahalının Xalisa kəndindən olan

**İsgəndərov Füzuli Əli oğlunun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

"Diplomat" qəzetinin redaksiya heyyəti Vedibasar mahalının Xalisa kəndindən olan

**Bayramov Süleymanın**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

"Diplomat" qəzetinin redaksiya heyyəti həmyerliləri Məmmədov Tağı, Həsənov Mahir, Ağayev Ağamir, Şükürov Murad, Şirinov Təvəkkül və Eldara ataları

**Şirinov Əbdülrəhimin**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.



# Mala Xwedê ava - Barzanî û Talebanî bûn yek

Cirgireyên Partiya Demokrat ya Kurdistanê û Yekîtiya Niştimanî ya Kurdistanê bi serokatiya Mesûd Barzanî û Celal Talebanî îro li Dukanê kom bûn û minaqeşeya helwêsta kurdan ya federalîzmê û Kerkûkê kirin. Piştî civîna herdu aliyan Mesûd Barzanî got spas ji Xwedê re ko herdu partiyan di meseleya federalîzmê de heman helwêst heye û ti cidayî di vê babetê de nînin.

Celal Talebanî jî got herdu partiyan li hev kirin ko xeta kurdan ya federalîzma neteweyî û cografî li ser bingehê biryara Parlamentoya Kurdistanê biparêzin.

Bi vê helwêsta wekhev û yekgirtî PDK û YNK bi hev re dê lêbixebitin ko federalîzma ew dixwazin li ereban bidin qebûl kirin û li wan bidin fêm kirin ko ew mafekê kurdan e û divêt ereb jê re rêzê bigirin.

Ereb jî wekî prensîp digel federalîzmê ne lê belê ew terefdarê federalîzma li ser bingehê wîlayetan (muhafeze) in û naxwazin ko kurd û Kurdistan wekî welatekê hempayê Iraqê bête hesibandin. Di nêvbera kurdan bi xwe de jî hemfikiriyeka temam nebû û tirsa kurdan ew bû ko YNK û PDK li hev nekin û kurd bi ser nekevin.

Piştî civîna îro kurd bi pozîsyoneka xurttir dê daxwaza xwe ya federalîzmê bidin pêş û li hemberî erebên neyekgirtî dê bikarin pirtir di meydana siyasetê de bibin xudangotin.

*Nêçîrvan Barzanî:*

# Em dê eskerên tirkan bi zorê derxin



Serokwezîrê Kurdistanê Nêçîrvan Barzanî îro ji ajansa nûçeyan ya emerîkî AP-ê re got ko kurd dê hêzên eskerî yên tirkan bi zorê ji Kurdistanê derxin. Gulana sala borî Parlamentoya Kurdistanê biryara derxistina eskerê tirk da û ji Tirkiyeyê xwest ko hêza xwe ya eskerî PMF-ê ji Kurdistanê derxe. Her piştî biryara Parlamentoya Kurdistanê kurdan nameyek ji Enqere, Washington û Londonê re rêkir û ji wan xwest ko eskerên tirk ji Kurdistanê derxin. (Wêne: Nêçîrvan Barzanî)

